LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Eastern Partnership Civil Society Facility



İcra müddəti: 28.06.2021 - 27.04.2028

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 7 396 250

Ümumi büdcə: € 7 396 250

İcraçı təşkilat(lar):

GDSI Limited (Ireland) in consortium with Altair Asesores S.L. (Spain), Office for European Expertise and Communications (Belarus), Innovative Education

Sosial media hesablarına keçidlər:

facebook.com/EaPCivilSociety, www.linkedin.com/company/eap-civil-society-facility

Internet səhifəsi: eapcivilsociety.eu/

Layihənin təsviri:

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Eastern Partnership Civil Society Facility” layihəsi “Şərq Tərəfdaşlığı” proqramına daxil olan altı ölkə ilə işləyərək, bu ölkələrdə yerləşən vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) və fəalların rolunun gücləndirilməsinə və potensialının artırılmasına yönəlir.

Layihə regionda yerləşən VCT-lərə və fəallara aşağıdakı imkanları təklif edir:
- Vətəndaş cəmiyyəti nümayəndələri üçün öyrənmə imkanları.
- Şəffaflıq, hesabatlılıq və iştirak üçün yeni ideyalar və alətlər hazırlamaq üçün hər il keçirilən vətəndaş cəmiyyəti hakatonları.
- Regionu təmsil edən 240 vətəndaş cəmiyyəti fəalına dəstək üçün vətəndaş cəmiyyəti təqaüdləri.
- Vətəndaş cəmiyyəti nümayəndələrinin regional şəbəkələşməsi və müvafiq regional və beynəlxalq tədbirlərdə iştirakı.
- Şəbəkələşməyə yardım və müvafiq təşəbbüslərin zərurətə uyğun olaraq dəstəklənməsi.
- VCT-lər barədə ictimai məlumatlılığı artırmaq, onların ictimai imicini yaxşılaşdırmaq və Aİ-nin vətəndaş cəmiyyətinə dəstəyini təbliğ etmək üçün məlumatlandırma tədbirləri.
- Aİ-nin müraciəti əsasında vətəndaş cəmiyyəti ilə bağlı xəritələşdirmə və tədqiqat işləri.

Gözlənilən nəticələr:

- Şərq Tərəfdaşlığı ölkələrində VCT-lərin və fəalların siyasət sənədlərinin hazırlanması proseslərinə və siyasi dialoqa cəlb olunmaq, islahatları və dövlətin hesabatlılığını təşviq etmək, yerli demokratiyaya və yerli inkişafa dəstək göstərmək və vətəndaşları ictimai müzakirələrə cəlb etmək üçün rolunun və potensialının gücləndirilməsi.
- Vətəndaş cəmiyyəti təşkilatlarının işində hesabatlılığın və şəffaflığın artırılması.
- Şərq Tərəfdaşlığı ölkələrində vətəndaş cəmiyyətinin ictimai imicinin yaxşılaşdırılması.
- Avropa Komissiyasının tərəfdaş ölkələrdə vətəndaş cəmiyyəti və onların üzləşdiyi problemləri daha yaxşı başa düşməsi və nəticədə Aİ tərəfindən maliyyələşdirilən gələcək proqramların hədəflərini daha yaxşı müəyyən etməsi.
- Aİ-nin Şərq vətəndaş cəmiyyətinə dəstəyi daha ardıcıl və tam şəkildə təbliğ edilir.